ŞƏFFAFLIQ
AZƏRBAYCAN

**"ŞƏFFAFLIQ AZƏRBAYCAN" TƏŞKİLATI**

**İYUL - SENTYABR 2007-CI IL ƏRZINDƏ GÖRÜLƏN IŞLƏR BARƏDƏ**

# MƏTBUAT ÜÇÜN HESABAT

1. **TƏŞKİLAT VƏ LAYİHƏ HAQQINDA QISA MƏLUMAT**
2. **MƏRKƏZLƏRIN FƏALIYYƏTI HAQQINDA MƏLUMAT**
3. **DÖVLƏT ORQANLARI VƏ QHT-LƏR ILƏ ƏMƏKDAŞLIQ**
4. **MÜRACIƏTLƏRIN ÜMUMI STATISTIKASI**
5. **UĞURLA HƏLL EDILMIŞ BƏZI MÜRACIƏTLƏR**

## TƏŞKİLAT VƏ LAYİHƏ HAQQINDA QISA MƏLUMAT

1993-cü ildə təsis olunan Transparency İnternational (Beynəlxalq Şəffaflıq) təşkilatı beynəlxalq qeyri-hökümət təşkilatıdır və dünyada aparıcı anti-korrupsiya hərəkatıdır. Beynəlxalq Şəffaflıq təşkilatının katibliyi Berlin şəhərində təsis olunub və milli bölmələrin köməyi ilə 90-dan çox ölkədə anti-korrupsiya fəaliyyətlərini əlaqələndirir. Bölmələr müstəqil yerli QHT-rı olaraq öz siyasətlərini azad seçirlər və fəaliyyətlərini davam etdirmək üçün fondlarını artırlar. "Şəffaflıq Azərbaycan" İctimai Birliyi 2000-ci ilin Oktyabr ayında vətəndaş cəmiyyəti və elmi nümayəndələr tərəfindən təsis olunmuşdur. 2001-ci ildə "Şəffaflıq Azərbaycan" təşkilatına milli bölmə statusu verilmişdir.

2005 ci il Aprel ayının 1-dən etibarən "Transparency İnternational" Təşkilatının Azərbaycan bölməsi MDB ölkələri arasında ilk olaraq yeni "ALAC" (İctimai Maraqların Müdafiəsi və Hüquq Məsləhət Mərkəzi) layihəsini həyata keçirir. Layihə ilk əvvəl Bakı və Gəncə olmaqla 2 mərkəz vasitəsi ilə fəaliyyət göstərirdisə, bu gün artıq 5 mərkəz (Quba, Lənkəran, Şəki) vətəndaşların qulluğundadır. Bakı ofisi 2005-ci il iyul ayının 1-dən, 1 Avqust 2005-ci il tarixdən

Gəncə mərkəzi, Lənkəran mərkəzi 1 İyul 2006-cı il tarixdən və Quba mərkəzi 1 Avqust 2006-cı il tarixdən, Şəki mərkəzi isə 1 Fevral 2007 ci il tarixdən tam fəaliyyət göstərir.

Hər bir şəxs aşağıdakı telefonlar vasitəsilə mərkəzlərə müraciət edə və pulsuz hüquqi yardım ala bilər.

- **Qaynar xətt Bakı 088 707 07 07 və yaxud (12) 497 68 15**
- **Qaynar xətt Gəncə 088 202 02 02 və yaxud (22) 59 05 92**
- **Qaynar xətt Lənkəran 088 303 03 03 və yaxud (171) 5 17 25**
- **Qaynar xətt Quba 088 404 04 04 və yaxud (169) 5 14 37 ya 5 14 91**
- **Qaynar Xətt Şəki 088 505 05 05 və yaxud (177) 4 26 55 ya 4 48 90**

Layihə, Boyuk Britaniya Xarici İşlər Nazirliyinin "Global Opportunities Fund" (Qlobal İmkanlar Fondu) proqramı və ABŞ Beynəlxalq İnkişaf Agentliyinin (USAİD) (Bakı, Gəncə və Lənkəran mərkəzləri), eləcə də ATƏT-in Bakı ofisinin (Quba və Şəki mərkəzləri, qismən də Bakı və Gəncə mərkəzləri) qrant dəstəyi əsasında həyata keçirilir.

ALAC layihəsi bir sıra Mərkəzi və Şərqi Avropanın Avropa İttifaqına üzvlüyünə namizəd ölkələrdə uğurla həyata keçirilmişdir. Sözü gedən ölkələrdə bu kimi layihələr böyük rol oynayır və vətəndaşların korrupsiyaya qarşı müqavimətini təmin etməklə dövlətlərin korrupsiyaya qarşı mübarizəsini sürətləndirir.

ALAC layihəsinin məqsədi vətəndaşları cəmiyyətdə baş verən korrupsiya halları ilə fəal mübarizəyə cəlb etməkdir.

ALAC layihəsinin missiyası vətəndaşlara korrupsiya şahidləri və korrupsiyanın qurbanlarına çevrilən hər bir kəsə pulsuz hüquqi yardım göstərmək və məsləhət verməkdir. Layihə zamanı göstərilən fəaliyyət inzibati və hüquqi şikayət, həmçinin vətəndaşlar tərəfindən qaldırılmış məsələlər nöqteyi nəzərdən korrupsiya mexanizmlərinin monitorinqi prosedurlarına əsaslanır. Lakin layihə, vətəndaşları məhkəmədə təmsil etmir və onların adından və ya onların nümayəndəsi kimi 3-cü şəxslərin qarşısında çıxış etmir.

**Layihə beş istiqamətdə həyata keçirilir:**

- **Hüquqi məsləhət**
- **Maariflənmə və məlumatlandırma**
- **İctimai maraqların müdafiəsi**
- **Dövlət orqanlarının institutsional inkişafına yardım**
- **Mobil treninq və seminar**

**Hüquqi məsləhət**

Hüquqi məsləhət vətəndaşlara öz hüquqularının bərpası və qorunması üçün effektli hüquqi mexanizmlərin istifadə edilməsi və dövlət orqanlarına müraciətlərin hazırlanmasına dair məsləhətlərin verilməsi istiqamətində keçirilən fəaliyyətdir.

**Maariflənmə və məlumatlandırma**

Bu fəaliyyət növü vətəndaşların və ictimaiyyətin anti-korrupsiya sahəsində maariflənmməsini nəzərdə tutur.

**İctimai maraqların müdafiəsi**

Bu fəaliyyət verilən hüquqi məsləhətlərin və maariflənmənin əsasında dövlətin müvafiq siyasətini, institusional təcrübəsini, qanunvericiliyin və pozuntulara görə məsuliyyəti təkmilləşdirmək məqsədilə həyata keçirilir.

**Dövlət orqanlarının institusional inkişafına yardım**

Bu fəaliyyət nəticəsində bir neçə dövlət orqanlarının qaynar xəttlərinin, korrupsiyaya mübarizə üzrə ixtisaslaşmış işçi qruplarının və s. yaradılmasına və fəaliyyət göstərmələrinə köməklik göstərilməsi nəzərdə tutulur.

**Mobil treninq və seminarlar**

Bu fəaliyyət ərzində mərkəz hüquqşünasları könüllülərin köməyi ilə müxtəlif hədəf qrupları (əsasən kənd əhalisi ilə) üçün görüş keçirir, mobil anti-korrupsiya təlimlərini keçirir və yerlərdə pulsuz hüquqi yardım göstərirlər.

***"Şəffaflıq Azərbaycan" təşkilatı (www.transparency-az.org) və adı çəkilən Layihə (www.alac-az.org) haqqında əlavə məlumat almaq üçün göstərilən internet ünvanlarına müraciət edə bilərsiniz.***

# <u>Mərkəzlərin fəaliyyəti haqqında məlumat</u>

- ***Seminar və Tədbirlər***

**Layihənin işçi heyəti hesabat dövrü ərzində müxtəlif təşkilatlar tərəfindən təşkil olunan və həmçinin özlərinin təşkil etdiyi 17 seminar, dəyirmi masa və konfranslarda iştirak etmiş və həmçinin yerləşdikləri ərazi üzrə yaşayan əhaliyə korrupsiya ilə bağlı mübarizə üzrə maarifləndirmə məqsədi ilə 47 seminar təşkil ediblər.**

<u>Aşağıda ayrı-ayrı mərkəzlərdə keçirilən tədbirlər haqqında qısa məlumat verilib:</u>[1]

Layihənin Bakı ofisi cari ilin Sentyabrın 22-də “Azərbaycan İnsan Hüquqları Fondu” QHT-si ilə birgə müxtəlif Universitetlərdən olan tələbələr üçün seminar təşkil etmişdir. Seminarda “Transparency İnternational” təşkilatı haqqında məlumat, onun Azərbaycan bölməsinin fəaliyyəti, ALAC layihəsi, onun xidmət və uğurları barədə iştirakçılara məlumat verilmişdir. Seminarda həmçinin korrupsiyaya qarşı mübarizə vasitələri ilə bağlı müzakirə keçirilmişdir. Gənclər daha çox təhsil sahəsində rüşvətin mövcudluğu ilə bağlı şikayətlərlə çıxış edirdilər.



*“Azərbaycan İnsan Hüquqları Fondu”nda keçirilən seminar*

---

[1] ***Hesabatda yalnız hər mərkəz üzrə bir tədbir işıqlandırılıb. Mərkəzlər nəznində keçirilən digər tədbirlər haqqında əlavə məlumat almaq üçün Layihənin Baş Koordinatoru Ceyhun Atayev ilə 418-11-09 nömrəsi ilə əlaqə saxlaya bilərsiniz.***

Layihənin Gəncə ofisi cari ilin İyulun 20-də Şəmkir rayonunda 30 nəfər yerli sakin üçün seminar keçirmişdir. Sakinləri Layihənin xidmətləri ilə bağlı tanış edən layihə əməkdaşı onlara yerində hüquqi yardım göstərmişdir. Sakinlər daha çox bələdiyyə, icra hakimiyyəti və polisin işi ilə bağlı öz narazılıqlarını bildirirdilər.



*Şəmkir rayonu sakinləri ilə görüş*

Layihənin Lənkəran ofisi cari ilin İyulun 27-də Yardımlı rayon İcra Hakimiyyəti ilə birgə rayonun Mədəniyyət evində ictimaiyyət nümayəndələri ilə görüş keçirmişdir. Görüş zamanı iştirakçılar daha çox torpaqların qeyri-qanuni satışı ilə bağlı şikayətlər ilə çıxış edirdilər. Layihənin hüquqşünası şikayətçilərə hüquqi məsləhət göstərərək onlara şikayət prosedurunu başa salmışdır. Yazılı şikayətlər öz növbəsində aidiyyatı orqanlara göndərilmişdir.



*Yardımlı sakinləri ilə keçirilən görüş*

Layihənin Quba ofisi cari ilin İyulun 12-də Quba rayonunda yaşayan Rus icmasının nümayəndələri üçün seminar keçirilmişdir. İcma nümayəndələri daha çox kommunal xidmətlərin aşağı keyfiyyəti, sosial yardım və torpaq qeydiyyatı ilə bağlı şikayətlər ünvanlayırdılar.



*Qubada rus icması üçün keçirilən seminar*

Layihənin Şəki ofisi cari ilin İyulun 11-də Şəki şəhərinin Şəki kəndində şəhər icra hakimiyyəti və yerli bələdiyyənin dəstəyi ilə kənd sakinləri görüş keçirmişdir. Sakinlər daha çox pasport qeydiyyat idarəsi və həmçinin plastik bank kartlarının alınmasında müşahidə olunan problemlər ilə bağlı şikayətlənirdilər. Şikayətçilərə yerində hüquqi yardım göstərilmiş və onların müraciətləri aidiyyatı orqanlara göndərilmişdir.



*Şəki kəndinin sakinləri üçün seminar*

## DÖVLƏT ORQANLARI VƏ QHT-LƏR ILƏ ƏMƏKDAŞLIQ

Korrupsiyaya Qarşı Mübarizə üzrə Dövlət Kommissiyası və Ədliyyə Nazirliyi əvvəlki dövrlər ilə müqayisədə bu rüb ərzində "Şəffaflıq Azərbaycan" təşkilatı ilə daha yaxından əməkdaşlıq etmək niyyətinini nümayiş etdirmişdir. Buna baxmayaraq, hər iki orqan təşkilat tərəfindən göndərilən şikayət sorğularını bəzi hallarda cavabsız qoyur. Layihənin Bakı ofisinin nümayəndələri cari ilin Avqust-Sentyabr aylarında keçirilən hakimlərin seçilməsi prosesi gedişində hakimliyə namizədlərin şifahi imtahanlarında iştirak ediblər.





*"Şəffalıq Azərbaycan" təşkilatının müşahidəçisi hakimliyə namizədlərin şifahi imtahanını müşahidə edir*

Bununla belə qeyd etmək lazımdır ki, Ədliyyə Nazirliyi, Dövlət Sosial Müdafiə Fondu, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Daxili İşlər və Nəqliyyat Nazirliyi kimi dövlət orqanlarına göndərilən ərizə yazılı şikayətlərinə cavab məktubu gəldiyi hallarda, burada rüşvət faktı təsdiqlənməsə də, dəyən ziyan ödənilir və ya təqsirkar şəxslərə qarşı inzibati tədbirlər görülür. .

Yerli İcra orqanları ilə əməkdaşlığa gəldikdə isə Bakı və Quba ofislərinin bu sahədə əməkdaşlığı demək olar ki olmasa da, Lənkəran ofisi hər ay şəhər icra hakimiyyətinin nümayəndəsi ilə görüşərək fəaliyyəti haqqında hesabatı verir və yerlərdə seminarların keçirilməsi üçün icra hakimiyyətinin icazəsini alır. Gəncə ofisi isə bu hesabat dövrü ərzində Gəncə şəhər İcra Hakimiyyəti tərəfindən seminarların keçirilməsi ilə bağlı bəzi maneələr ilə üzləşmişdir.

Layihə, yerli QHT-lər ilə sıx qarşılıqlı əməkdaşlıq edirlər. Bir çox hallarda təşkilat yerli QHT-lərə müraciət edərək birgə tədbirlərin keçirilməsi təklifi ilə çıxış edir. Bəzi hallarda isə müxtəlif QHT-lər təşkilatın yerli ofislərindən müəyyən tədbirlərin keçirilməsi üçün istifadə edirlər.

Layihənin Bakı hesabat dövrü ərzində BMT, Milli QHT Forumu, BP şirkəti, Miqrantlara Hüquqi Yardım mərkəzi, Mədən Sənayesində Şəffaflığın Artırılması Koalisyası kimi təşkialtların tədbirlərində iştirak etmiş və onların hesabatları ilə tanış olmuşdur.

Cari ilin Sentyabrın 7-də Layihənin Gəncə ofisinin əməkdaşları "Korrupsiyaya Qarşı Mübarizə Fondu" tərəfindən Gəncədə təşkil olunmuş Korrupsiyaya Qarşı Mübarizə üzrə Milli Strategiya ətrafında müzakirələrdə iştirak etmişlər.

Cari ilin Mayın 2-də Layihənin Lənkəran ofisi "Sülh Korpusu Azərbaycan" təşkilatının nümayəndəsi Ələkbər Quliyev tərəfindən təşkil olunan dəyirmi-masa müzakirəsinə sahiblik etmişdir. Görüşdə müxtəlif yerli və beynəlxalq QHT nümayəndələri təmsil olunmuşdur. Tədbir zamanı, Sülh Korpusu könüllülərinin Layihəyə dəstək imkanları müzakirə olunmuşdur.

Cari ilin Avqustun 4-də Layihənin Lənkəran ofisində Avrasiya Fondunun Azərbaycan Gənclər Fondunun Məsləhət Şurasının Birinci Regional Görüşü keçirilmişdir. Tədbirdə gənclər siyasəti və gənclərin üzləşdikləri problemlər barədə fikir mübadiləsi aparılmışdır.



*Lənkəran ofisində keçirilən görüş*

Cari ilin İyulun 4-də Layihənin Quba ofisinin əməkdaşları "Korrupsiya və digər Neqativ Hallara qarşı Vətəndaş Nəzarəti" QHT-sinin Quba rayon şöbəsinin nümayəndələri ilə görüş keçirmişdir.  Görüşün nəticəsində Buduq kənd Etnik Azlıq Cəmiyyəti nümayəndələri üçün korrupsiya qarşı mübarizə maarifləndirmə seminarının keçirilməsinə dair razılıq əldə edilmişdir.

# MÜRACIƏTLƏRIN ÜMUMI STATISTIKASI

Layihə, qeyd olunan hesabat dövrü ərzində 5 mərkəz daxil olmaqla 1,792 ilkin zəng və şikayət qəbul edib: Bakı (274), Gəncə (501), Lənkəran (360), Quba (330) və Şəki (327).

*Aşağıda göstərilən diaqram hər beş mərkəz üzrə qəbul olunan şikayətlərin rəqəmlə ifadə olunması göstərilir.*



## Şikayətçilərin cinsi

Şikayətçilərin cinsi nisbəti ilə götürsək, kişilər qadınlara nisbətən daha çox şikayət ilə mərkəzlərə müraciət edirlər. Bu hal özünü daha çox kənd yerlərində biruzə verir. Buna əsas verən amillərdən biri isə görüşlərin çayxana və ya ofis daxilində keçirilməsidir. Şəki və Gəncə şəhərlərində qadınların iştirak faizi daha yüksəkdir. Bununla belə, Lənkəran və Qubada məktəblərdə təşkil olunan tədbirlərdə də qadınların çoxluq təşkil etmələri müşahidə olunurdu..

*Aşağıda göstərilən diaqram hər beş mərkəzə müraciət edən şikayətçilərin cinsi nisbətini göstərir:*

| **Şikayətçilərin cinsi** | | **Bakı X** | **Gəncə X** | **Lənkəran X** | **Quba X** | **Şəki X** |
|---|---|---|---|---|---|---|
| A | Kişi | 181 | 241 | 313 | 250 | 214 |
| B | Qadın | 93 | 260 | 47 | 80 | 113 |
| C | Şikayətlərin ümumi sayı | 274 | 501 | 360 | 330 | 327 |

## Şikayətçilərin yaşı

Hər yerdə olduğu kimi, ən aktiv yaş qrupu orta yaşlı əhali hesab edilir. Bununla belə, digər qrupların xüsusi cəhdləri nəticəsində cavan nəsil də yaxşı təmsil olunma imkanından bəhrələnir. Gənclər bu sırada çox passiv görünürlər.

## Şikayətçilərin coğrafi yerləşməsi

Layihənin ilkin həyata keçirilmə mərhələlərində hüquqi yardım əsasən şəhər əhalisinə edilirdisə, son rüb dövründə regional mərkəzlər kənd yerlərində mobil təlimlər keçirmək yolu ilə daha çox kənd əhalisinin ehtiyacları ilə məşğul olublar.

## Şikayətlər ilkin olaraq necə qəbul olunur

Vətəndaşların telefon vasitəsilə əvvəlcədən görüş təyin etməkdən çox sadəcə gəlməyə üstünlük vermək tendensiyası azalmaqdadır. Telefon zəngi və Layihə ofisinə gəlmə ən geniş yayılmış metoddur. Bir çox hallarda regional mərkəz əməkdaşları özləri ayrı-ayrı kəndlərə səfər edir və mövcud olan problemlərlə yerində tanış olurlar.

## Şikayətlərin ünvanlandığı sahələr

Hər bir mərkəzdə eyni olaraq, məhkəmə sistemi şikayətlərin ən çox ünvanlandığı sahədir. Digər sahələrə isə icra orqanları, polis, pensiya fondu və bələdiyyələrə aiddir:

| Sahələr üzrə | | Baku X | Ganja X | Lenkoran X | Quba X | Şəki X |
|---|---|---|---|---|---|---|
| A | Məhkəmə | 70 | 81 | 19 | 37 | 70 |
| B | Səhiyyə | 3 | 13 | 3 | 3 | 17 |
| C | Təhsil | 10 | 23 | 15 | 8 | 10 |
| D | Gömrük | 0 | 9 | 1 | 0 | 0 |
| E | Vergi/Maliyyə | 3 | 0 | 4 | 1 | 7 |
| F | Polis | 39 | 34 | 25 | 22 | 32 |
| G | Lizensiyalar (tikinti və s.) | 0 | 0 | 0 | 0 | 0 |
| H | Alqi-aatqı | 0 | 21 | 0 | 0 | 0 |
| I | Özəlləşdirmə | 10 | 3 | 2 | 0 | 1 |
| J | Siyasi Partiya | 0 | 0 | 0 | 0 | 0 |
| K | Inspeksiya | 0 | 0 | 0 | 0 | 0 |
| L | İcra orqanları | 12 | 35 | 82 | 0 | 19 |
| M | Pensiya | 29 | 57 | 35 | 10 | 27 |
| N | Əmək mübahisəsi | 10 | 42 | 1 | 3 | 28 |
| O | Bələdiyyə | 27 | 86 | 78 | 28 | 26 |
| P | Prokurorluq | 9 | 0 | 4 | 1 | 4 |
| Q | Özəl sektor | 11 | 0 | 1 | 0 | 7 |
| R | Hərbi Kommisarlıq | 9 | 12 | 1 | 2 | 9 |
| S | Digər | 18 | 85 | 89 | 95 | 57 |
| T | Müəyyən deyil | 14 | 0 | 0 | 120 | 13 |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| U | Müxtəlif sahələr üzrə ünvanlanan çikayətlərin ümumi sayı | 274 | 501 | 360 | 330 | 327 |

**<u>Qəbul olunan telefon zənglərinin sayı</u>**

*Aşağıdakı diaqram beş mərkəz üzrə qəbul olunan telefon zənglərinin sayını göstərir:*



## UĞURLA HƏLL EDILMIŞ BƏZI MÜRACIƏTLƏR

### Bakı üzrə

1. **B2585/740 Polis əməkdaşı qeyri-etik davranışına görə inzibati cəzaya məhkum olmuşdur.** Binəqədi rayon polis əməkdaşı qeyri-qanuni bərpa və tikinti işinə göz bağlamaq şərti ilə vətəndaşdan rüşvət götürmüşdür. Vətəndaş, öz hüququnu tələb edərək Layihənin Bakı ofisinə müraciət etmiş, mərkəz isə öz növbəsində onun şikayətini Daxili İşlər Nazirliyinə göndərmişdir. Nazirlik rüşvət faktını təsdiq etməsə də, polis əməkdaşı davranış etikasının tələblərini pozduğuna görə (vətəndaş ilə kobud münasibət) ciddi tənbehə məruz qalmışdır.

2. **B2252/613 Bələdiyyə sədri öz vəzifəsindən azad edildi.** Bakı yaxınlığında yerləşən Məhəmmədli kəndinin sakinləri yerli bələdiyyə sədrinin qeyri-qanuni hərəkətlərindən şikayət edirdilər (torpaq sahələrinin satılması və torpaq sənədlərinin rüşvətə satılması). 25 nəfər sakin tərəfindən imzalanan şikayət Ədliyyə Nazirliyinə göndərilmişdir. Nazirliyin araşdırması nəticəsində bələdiyyə sədri öz vəzifəsindən azad edilmişdir. Bununla belə, korrupsiya faktı təsdiqlənməmişdir.

3. **B2379/674; 2559/735 – Kommunal xidmətlərə olan borclar məsələsi öz həllini tapdı.** Bakı şəhərinin iki sakini kommunal xidmətlərə görə qeyri-qanuni borcların olması ilə bağlı şikayətlərlə mərkəzə müraciət etmişlər. Mərkəzin məsələyə müdaxiləsindən sonra borcların qeyri-qanuni olduqları təsdiqlənmiş və təqsirkar şəxslər inzibati qaydada cəzalandırılmışlar. Bu halda da, korrupsiya faktı təsdiqlənməmişdir.

4. **B2495/705 Təqsirkar şəxs yaxalandı və araşdırma başa çatdı.** Vətəndaş Səbail rayon polis idarəsinə şikayət etmişdir. O, şikayətində Polis İdarəsinin təqsirkar şəxsdən rüşvət alıb onu həbs etməkdən imtina etməsi ilə bağlı olub. Mərkəzin müdaxiləsindən sonra həmin təqsirkar şəxs həbs edilmiş, qanuni araşdırma aparılmış və iş məhkəməyə verilmişdir.

## Gəncə üzrə

1. **G2552/1991 Torpaq sahəsi öz qanuni sahibinə qaytarıldı**. Vətəndaş şikayət etmişdir ki, onun qanuni torpaq sahəsi özəlləşməyə qoyulmuş və bələdiyyə tərəfindən başqa şəxsə satıəlmışdır, əvəzinə isə ona başqa yerdə torpaq sahəsi təklif edilmişdir. Mərkəzin işə müdaxiləsindən sonra torpaq sahəsi öz qanuni sahibinə qaytarıldı. Bununla belə, Ədliyyə Nazirliyi bildirmişdir ki, torpaq dəyişmə səhvən baş vermiş, lakin Torpaq və Xəritəçəkmə Komitəsi sənədlərin saxta olduğunu bildirmiş və materialları Prokurorluğa göndərmişdir.

2. **1752/1468; 1750/1456; 1975/1617 Ünvanlı sosial yardım və pensiyalar təmin edilmişdir.** Şəmkir rayon sakinləri iddia edirdilər ki, onlardan ünvanlı social yardımın verilməsi üçün rüşvət tələb edilirdi. Mərkəzin məsələyə müdaxiləsindən sonra bütün instansiyalar təmin edilmişdir. Buna baxmayaraq, birinci iki məsələdə qanun pozuntuları tanınmış, üçüncü məsələdə isə inspektora qarşı yazılı şəkildə xəbərdarlıq edilmişdir

## Lənkəran üzrə

1. **L334; 353 Məhkəmə qərarları icraata verildi.** Lənkərandan olan iki şikayətçi iki mülki iş üzrə məhkəmənin icra etməməsi ilə bağlı şikayətlənmişlər. Mərkəzin müdaxiləsindən sonra mülki işlər icraata verildi.

2. **L641 Vətəndaş sürücülük kurslarına qəbul edildi.** Vətəndaşdan sürücülük kurslarına yazılmaq üçün rüşvət tələb edilmişdir. Mərkəzin müdaxiləsindən sonra rüşvət faktı təsdiqlənməsə də, şikayətçi kurslara heç bir problem olmadan yazıla bildi.

## Quba üzrə

1. **G530/72** Vətəndaş şikayət etmişdir ki, onun ərizəsi Quba məhkəməsi tərəfindən qeydiyyatdan keçməmişdir. Mərkəzin müdaxiləsindən sonra iş Xaçmaz məhkəməsi tərəfindən qəbul edilmişdir.
2. **G839/79** Vətəndaş şikayət etmişdir ki, ona məhkəmə qərarının icraatı üzrə məlumat verməkdən imtina edilib. Mərkəzin məsələyə müdaxiləsindən sonra vətəndaş lazimi məlumatla təmin edilmiş və iş baxılma üçün Prokurorluğa göndərilmişdir.
3. **G968/84** Vətəndaş şikayət etmişdir ki, yerli bələdiyyə və Torpaq və Xəritəçəkmə Komitəsi tərəfindən ona özəlləşdirmə ilə düşən torpaq sahəsinə sahiblikdə maneələr törədilirdi. Mərkəzin işə müdaxiləsində sonra məsələ vətəndaşın xeyrinə həll edilmişdir.
4. **G1116/91** Vətəndaş şikayət edirdi ki, Daşınmaz Əmlakın Dövlət Qeydiyyatı İdarəsi tərəfindən qeydiyyat sənədinin verilməsindən imtina edilmişdir. Mərkəzin işə müdaxiləsindən sonra məsələ vətəndaşın xeyrinə həll eilmişdir.
5. **G1113/91** Vətəndaş şikayət etmişdir ki, polis əməkdaşı öz səlahiyyətlərini aşmış və vətəndaşı məcburən psixi hospitala yerləşdirmişdir. Mərkəzin müdaxiləsindən sonra Prokurorluq məsələnin araşdırmasına başladı.

## Şəki üzrə

1. **Sh 288/38 Məhkəmə işə baxmağa razılıq verdi.** Vətəndaş şikayət edirdi ki, Appelyasiya Məhkəməsi onu işini dinləməkdən imtina etmişdir. Mərkəzin müdaxiləsindən sonra Məhkəmə-Hüquq Şurasından işin dinləniləcəyi ilə bağlı rəsmi cavab gəlmişdir.
2. **367/39 Müəllim qanunla düşən imtiyazlar ilə təmin edildi.** Vətəndaş şikayət edirdi ki, Şəki şəhər Təhsil Şöbəsi Müəllimlər Məktəbinin İnkişafı proqramı çərçivəsində müəllimlərə düşən imtiyazları (torpaq sahəsi) verməkdən imtina edib. Mərkəzin Təhsil Nazirliyinə göndərdiyi yazılı müraciətdən sonra yerli hakimiyyətə məsələni vətəndaşın xeyrinə həll etmək tapşırılmışdır.
3. **Sh 389/43 Sosial yardım bərpa edildi.** Vətəndaş şikayət etmişdir ki, onun həyat yoldaşı məcburi köçkün statusuna malik olduğuna görə social yardım ala bilmir. Mərkəzin işə müdaxiləsindən sonra vətəndaş 2007-ci ildən bəri ona qanunla nəzərdə tutulan yardımı aldı.
4. **Sh 446/45 Mülki iş polis tərəfindən araşdırıldı.** Vətəndaş şikayət edirdi ki, polis idarəsi onun şikayətini qəbul etmir. Mərkəzin ünvanladığı məktuba cavab olaraq, Şəki şəhər Polis İdarəsi məsələni araşdırmış və icraat məqsədilə onu Prokurorluğa göndərmişdir.